# ŞAH İSMAYILLA BAĞLI RƏVAYƏTLƏR



**Azərbaycan folklorunda Şah İsmayıl Xətai ilə bağlı tarixi rəvayətlərə çox təsadüf olunur. Belə örnəklərin araşdırılması Xətai ilə bağlı tarixi keçmişimizin müəyyən bir dövrülə yanaşı, xalqımızın mifik və dini görüşlərinin öyrənilməsi baxımından da əhəmiyyətlidir. Bu istiqamətdə öyrənilməsi vacib olan maraqlı folklor nümunələrindən biri "Şah İsmayıln qılıncı" rəvayətidir.**

Rəvayətin variantlarından birində deyilir ki, Şah İsmayıl Naxçıvanın Araz vadisindəki döyüşdə Osmanlı topunun lüləsini iki yerə ayırdığından el arasında onun qılıncına ildırım parçasıdır demişlər. Osmanlı sultanı bunu eşitdikdə qılıncı almaq məqsədilə Şah İsmayıla müraciət etmişdir.

Şah cavabında:

-Onu mən peşkəş də verə bilərəm- demişdir.

Rəvayətə görə, Xətai onu Osmanlı sultanına vermişdir.

Pəhləvanlar yoxlayıb qılıncın topun lüləsini kəsmədiyini gördükdə sultan narazı halda onun həmin qılınc olmadığını söyləyib.

Şah İsmayıl həmin qılıncla yenidən topun lüləsini bölüb:

-Qılınc həmin qılıncdır, qol həmin qol deyil,- cavabını vermişdi.

Sultan buna heyrətlənib:

-Sənin qılıncın yox, qolların ildırım parçasıdır- demişdir.

Gülüstan kəndindən (Culfa rayonu) vaxtilə toplanmış bu rəvayətlə bağlı bir tarixi məlumata nəzər salaq. Tədqiqatçı alim Mirzə Abbaslı Səfəvi və Osmanlı məxəzlərinə əsasən yazmışdır ki, Şah İsmayıl təqribən üç gün çəkən Çaldıran vuruşunun son günündə yeddi dəfə atını dəyişmiş, özünü Sultan Səlim ordusunun qəlbgahına yetirmişdir.

Hər dəfə də toplara bağlanan zəncirləri qılıncla doğramış, hətta bir top lüləsini də qılıncla yarmışdır. Fikrimizcə, rəvayətin bu tarixi hadisə ilə bağlılığı şübhəsizdir. Görünür, rəvayət öz süjetini həmin döyüşdən almışdır.

Bunu "Şah İsmayılın qılıncı" rəvayətinin bir variantına Cənubi Azərbaycanda təsadüf olunması da göstərir. M. Abbaslının verdiyi məlumata görə, Şah İsmayılla bağlı əfsanə və rəvayətlər qonşu ərazilərdə də yayılmışdır. Belə rəvayətlərdən aydın olur ki, Şah İsmayıl sərkərdə kimi öz dövründə İraqi-ərəbdə də çox məşhur olmuşdur.

Şah İsmayılla bağlı nümunələrdən biri də "Xətai" rəvayətidir. Bu rəvayətin də el arasında oxşar variantları vardır.Onlardan birinin təxmini məzmunu belədir:

"Şah İsmayılın arvadı Şərurdakı vuruşda osmanlılara əsir düşür. Bunu eşidən Şah sarsılır, ömründə "xəta" etməyib düşmənə fürsət verdiyinə görə, özünü danlayıb deyir: "Nə böyük xəta elədim".

Deyilənə görə, Xətai sözü də buradan yaranmışdır. Bu rəvayət Şah İsmayılla bağlı iki tarixi hadisəni və "Şah İsmayıl -Tacli bəyim" dastanını yada salır.

Tarixdən məlumdur ki, Səfəvilər 1501-ci ildə Şərur düzündə Ağqoyunlu Əlvənd Mirzənin qoşununa qalib gəlmiş, yeddi minlik ordu ilə otuz minlik böyük bir qüvvəni dağıtmışlar.

Göründüyü kimi, "Xətai" rəvayəti bu tarixi hadisə ilə yalnız ərazi baxımından uyğun gəlir. Bunlar arasında heç bir oxşarlığa təsadüf edilmir. Belə uğurlu döyüşdə şahın qadını necə əsir düşə bilərdi? Əlbəttə, bu ağlabatan deyil. Rəvayətin tarixi kökü bu döyüşlə səsləşmir.

Bir məsələni də qeyd edək ki, I İsmayıl Əlvənd Mirzənin qoşununu məğlub edəndə hələ şah deyildi. Rəvayətdə I İsmayıldan şah kimi bəhs olunur. Məlum olduğu kimi, I İsmayıl Şərurdakı döyüşdən bir il sonra 1502-ci ildə Təbrizdə özünü şah elan etmişdir.

İkinci tarixi hadisəyə diqqət yetirək: Məlumdur ki, 1514-cü ildə Sah İsmayıl Çaldıran düzündəki döyüşdə məğlub olmuşdur. Bu vuruşda Dərcəzinə çəkilmiş Şah İsmayıla Taclı bəyimin Təbrizdə olmadığını xəbər verdikdə, o ah çəkərək demişdir: "Namus Qeysərin əlinə düşsə, daha yaşamaq nəyə lazımdır" ( S. M. Onullahi. "Taclı xanım", Azərbaycan SSR EA xəbərləri (ədəbiyyat, dil və incəsənət seriyası), 1981, 1, s. 49).

Alimlərdən prof. M. H. Təhmasib və prof. O. Əfəndiyevin tədqiqatları sübut etmişdir ki, Taclı bəyim bu əsirlikdən vaxtında qacıb qurtarmışdır (M. H. Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, 1972, s. 157, 158; O. Əfəndiyev. XVI əsrin əvvəlində Azərbaycan Səfəvilər dövlətinin yaranması. Bakı, 1961, s. 118, rus dilində). "Şah İsmayıl- Taclı bəyim" dastanında da yaralanmış Taclı bəyim öz qardaşı sərkərdə Durmuş xanla gəlib Təbriz yaxınlığındakı Qaradaş qalasında onu gözləyən şaha çatırlar. Dastana görə, qəhrəman bir qadın kimi döyüş meydanında vuruşaraq oxla yaralanmış Taclı bəyim əsir düşməmişdir (M.H.Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər), s. 157, 158).

Beləliklə, rəvayətdə və dastanda verilmiş əhvalatlar Çaldıran döyüşündə baş vermiş hadisələrin dəqiq təsviri deyil, onun bəzi epizodları ilə yaxından səsləşən, əsasını ordan götürən tarixi qəhrəmanlıq nümunələridir.

Bunlar göstərir ki, Çaldıran hadisələrinin təsirilə Xətai rəvayətdəki ağır və kədərli anları keçirmişdir. Görünür ki, həmin məğlubiyyətdən doğan ağır kədər Xətai poeziyasına da təsir göstərmiş və şeirlərinin birində şair demişdir:

*Dəmbədəm yol gözlərəm, sevgili yarım gəlmədi,*
*Qalmışam qış möhnətində nobaharım gəlmədi*
(Ş.İ.Xətai.Əsərləri, II c. Bakı, 1976, s. 58).

Tarixçilərin yazdığına görə, Çaldıran məğlubiyyətindən sonra yaşadığı on il ərzində Xətainin güldüyünü görən olmamışdır. Şübhəsiz ki, şairin yaradıcılığına təsir göstərən bu məğlubiyyət şifahi xalq yaradıcılığında öz əksini tapmaya bilməzdi.

"Xətai" rəvayətinin dini variantından birində isə deyilir ki, Şah İsmayıl Xətai Hürrün qəbrini açıb başındakı sarığı götürdükdə yarasından qan axır. Bu vaxt vəzir şaha: "Qibleyi-aləm, xəta elədin" deyir. Xətai yaradıcılığında buna çox yaxın bir beyt var:

*Şah Xətai seyrə çıxdı, açdı Hürrün qəbrini,*
*Bar ilahi, əhv qıl kim, tövbəkaram doğrusi*
(yenə orada, s. 58).

Qısa məzmunu verilən rəvayət də, beyt də dini-ideoloji məqsəd daşıyır. Xətai sözü ilə bağlı bu söyləmə tarixi həqiqət yox, dini motivli rəvayətdir. Şah İsmayılın bu təxəllüsü seçməsinin başqa

səbəbi var ki, bu barədə müxtəsər də olsa, bəzi məlumatlara nəzər salmağı vacıb sayırıq. Əbü Reyhan Biruninin və bəzi farsdilli mənbələrə istinad edən müəlliflərin fikirlərindən görürük ki, Şərqdə azərbaycanlıların ərazisinə bir zamanlar Xəta ölkəsi deyilmişdir. Şah İsmayıl da bu ölkəni vətəni hesab etmiş, özünü Xətai adlandırmışdır. Bununla yanaşı, bu təxəllüsün xatay türk tayfaları ilə bağlılığı haqqında əsaslı fikirlər var ki, bunu da nəzərə almamaq olmaz.

Elmi ədəbiyyatlarda Xətai təxəllüsü ilə bağlı fikirlərin bir qismini özündə ifadə edən tədqiqatlardan birində deyilir: "Xatay tayfalarının Azərbaycanla bağlılığını onların Şərqi Anadoluda yaşamaları da sübut edir.

Bizə məlum olan titullar göstərir ki, yalnız Şah İsmayılın təxəllüsü yox, onun əcdadı Səfəvilər nəsli də qədim dünyanın ən mədəni və cəsur tayfalarından biri olan xataylardan törənmişdir (İ. Cəfərsoylu. Xətai təxəllüsü," Elm və həyat" yurn., 1987, .2, s. 14).

Tədqiqatçı Şəmsəddin Samiyə, eləcə də Marağalı Əvhədı, səyyah Əbdürrəşid Bakuvi və digər müəlliflərə, əski Çin mənbələrinə istinad edərək məlumat verir ki, xataylar ulu çağlardan uzaq Mancuriyada yaşamış türk tayfalarından biridir.

Xətai qədim gündoğan Çinin və xatay türklərinin adıdır. Onlar gözəllikləri ilə də çox məşhur olmuşlar. Ehtimal ki, xatay sözü türk xalqlarından birinin müqəddəsləşdirilmiş onqonu Qutan quş adından törəmişdir ( yenə orada, s. 15).

"Belə nəticə çıxır ki, şifahi xalq ədəbiyyatının ayrı-ayrı janr nümunələrində işlənməkdə olan Xətai sözü etnik baxımdan xatay türk tayfalarının və onların mifik görüşlərində özünə yer tutmuş "Qutan" adlı quş onqonu ilə bağlıdır.

Görünür ki, Şah İsmayıl tədqiqatlarda deyildiyi kimi, Xətai təxəllüsünü seçməklə türklərin, o sıradan Azərbaycan xalqının Xəta ölkəsi adlanan vətəninin övladı və xatay türk tayfaları ilə bağlı olduqlarını ifadə etmişdir (Y. Səfərov. Azərbaycan folklorunda tarixilik, Bakı, 2005, s. 218 ).

Azərbaycan xalqının tərkibində xüsusi yeri olan Səfəvilər türk tayfalarının əsas qanadlarından biri hesab edilən Qayı tayfasından çıxmışdır. Onların birbaşa xataylardan törədiyini bildirən konkret qaynaqlar bizə məlum olmasa da, xataylarla qayıların qohum, bəlkə də eyni tayfa olmasını ehtimal etməyə imkan verən köməkçi mənbələr vardır ( İ. Cəfərsoylu, göstərilən məqaləsi, s. 15 ).

Burdan da "Xətai sözü bəzi dini rəvayətlərdə söyləndiyi kimi, nə "xəta eləmək" mənasındadır, nə də ki, I Şah İsmayılın Çaldıran vuruşundakı məğlubiyyəti, yaxud bundan doğan qəmi, kədəri ilə əlaqəlidir... Ümumiyyətlə, şifahi, eləcə də klassik ədəbiyyatda geniş işlənən Xətai sözü qədim türk etnoslarından birinin adı ilə bağlıdır" ( Y. Səfərov. Bayatılarda yaşayan izlər, "Qobustan" yurn., 2005, ..1, s. 57).

Bu gün Azərbaycanın, o sıradan Naxçıvanın bəzi guşələrində "Şah bulağı", "Şah yurdu" adlı yerlərin olması da, güman ki, I Şah İsmayılla bağlıdır. Rəvayətə görə, şah bu yerlərə yaylağa çıxarmış.

Çaldıran məğlubiyyətindən sonra ciddi hərbi səfərlərə meyl etməyən Xətai boş vaxtlarını bəzən təbiətin qoynunda keçirərmiş. Ə. Nicatın da yazdığı kimi, Azərbaycan türklərinin tarixində böyük xidmətləri olan Şah İsmayıl qışı Muğanda, yayı Azərbaycanın cənubundakı yaylaqlarda keçirməyi xoşlardı (Ə. Nicat. Qızılbaşlar, Bakı, 1983, s. 254).

**Belə qənaətə gəlmək olur ki, Xətai ilə bağlı tarixi hadisələr Azərbaycan şifahi xalq yaradıcılığında çox erkən epikləşərək bir çox rəvayətlərin yaranmasında əsas mənbələrdən biri olmuşdur. Araşdırılan rəvayətlər göstərir ki, Xətai dastanlarda, əfsanələrdə olduğu kimi, rəvayətlərdə də özünə yer tutmuş tarixi şəxsiyyətlərdən biridir. Belə örnəklərdə xalqın ona böyük sevgi və istəyinin ifadəsinə rast gəlirik.**

● **Yusif SƏFƏROV,**
***filologiya elmləri doktoru***